10.61764/lasr.1.2023.136-143

**UOT 33.332**

**Esmira Həsənzadə**
**Bakı Dövlət Universiteti, dissertant**
*esmira.hesenzade@mail.ru*

# ƏRZAQ TƏMİNATI VƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ MALİYYƏ SİYASƏTİNİN İQTİSADİ ƏHƏMİYYƏTİ

*Bəşər cəmiyyəti var olduğu gündən bəri, həyat fəaliyyətinin fasiləsizliyinin təmin edilməsi məqsədilə ərzaq məhsullarının istehlakına ehtiyyac duymuşdur. Bu məqsədlə ilkin dövrlərdə müxtəlif əkinçilik və bu əsasda heyvandarlıq məhsullarının hazırlanmasına, yetişdiriilməsinə istiqamətlənmiş əməliyi fəaliyyətlər reallaşdırmışdır. Ancaq zamanla cəmiyyətin dövrün tələblərinə uyğun dəyişməsi, inkişaf etməsi onların günlük istehlak tələblərindədə əsaslı dəyişikliklərə gətirib çıxardı. Odur ki, ərzaq təminatını əlverişli şərtlər daxilində təmin edilməsi hər bir ölkənin milli ərzaq siyasətinin vacib istiqaməti kimi çıxış edir. Bu məqsədlə məqalədə yerli məhsul istehsalçılarının ayrı-ayrı istiqamətlər üzrə dəstəklənməsi sınanmış, səmərəli dünya təcrübəsi olduğundan, müasir ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə dövlətin yerli istehsalçıların maliyyə alətləri vasitəsilə dəstəklənməsi praktikasına xüsusi diqqət artırılması vurğulanməşdır. Bu sahədə maliyyə mexanizminin təkmilləşdirilməsi istiqamətləri ayırd edilərək, ən səmərəlilərindən istifadəyə yer verilir.*

***Məqsəd:*** ərzaq təhlükəsizliyini milli iqtisadi təhlükəsizliyin vacib həlqəsi kimi ayırd etməklə, onun təmin edilməsinin milli iqtisadiyyatda əsaslı sosial-iqtisadi dəyişikliyə gətirib çıxardığını əsaslandırmaq.

***Metodologiya:*** məqalənin işlənilməsi metodologiyasını riyazi-statistik təhlillər, məntiqi ardıcılıq, məntiqi mühakimə və analiz-sintez metodları təşkil edir.

***Tədqiqatın nəticəsi:*** müasir dövrdə ərzaq təhlükəsizliyi üzrə çoxsaylı elmi-nəzəri yanaşmalar mövcud olsada, problemin kompleks həllinə nail olunmamışdır. Bir tərəfdən dünyada artan insan sayı, digər tərəfdən ətraf mühitdə baş verən müxtəlif mənfi meyllərin təsirinin kəskinləşməsi ərzaq təhlükəsizliyinin təmin edilməsi qarşısında çoxsaylı müxtəlif maneələrin yaranmasına səbəb olmuşdur. Bucür maneələrin vaxtında müəyyən edilib aradan qaldırılması heçdə qısa zaman kəsiyində baş vermədiyindən həyata keçirilən tədbirlərində səmərəsinin əldə edilməsi müəyyən zaman tələb edir.

***Açar sözlər:*** *qlobal ərzaq təhlükəsizliyi, milli ərzaq təhlükəsizliyi, özünütəminetmə, dövlət dəstəyi, maliyyə alətləri*

## Giriş

Cəmiyyətin istehlak strukturunun əsasının təşkil edən ərzaq məhsulları, istər cəmiyyətin mövcudluğunun davamlılığı baxımından, istərsə də əmək məhsuldarlığının artırılmasının vacib şərti kimi ayırd edilə bilinər. İqtisadi ədəbiyyatlardan bilindiyi üzrə, ərzaq təhlükəsizliyinə, cəmiyyətin ərzaq təminatının lazımı səviyyədə ödənilməsini zəruri edən iki aspektən yanaşmaq olar. Bunlardan biri, iqtisadi digəri isə tibbi nöqteyi nəzərdən

fərqləndirilir. İqtisadi zərurət baxımından məsələyə yanaşmazdan əvvəl qısaca qeyd etmək istərdik ki, ərzaq təminatının, bu əsasda gündəlik istehlakın lazımı səviyyədə ödənilməməsi zaman etibarı ilə həmin ayrı-ayrı arealarda yaşayan xalqların, müxtəlif qalıcı təsirlərə malik xəstəliklərə düçar olmasın gətirib çıxara bilir. Məlumat üçün qeyd edək ki, hazırda dünyada aclıqdan əziyyət çəkən insanların sayı 870 mln-dan bir qədər çoxdur. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı təşkilatının məlumatlarına görə 2015-ci il üzrə yer kürəsindən normal həyat fəaliyyətinin təmin edilməsi üçün cəmiyyətin müxtəlif təbəqələrindən olan iqtisadi fəal əhali qrupuna daxil olan insanların ərzaq tələbinin dəyəri 2940 kkal təşkil etmişdir. Bu rəqəmin 2030-cu ilə qədər bir qədərdə artaraq, 3050 kkal təşkil edəcəyi proqnozlaşdırılır. Hazır ki, vaxtda gündəlik qida rasionu qlobal dəyişikliklər fonunda kəskin dəyişikliyiə məruz qalmışdır. Buna təsir edən amillər sırasında coğrafi, ekoloji, iqtisadi-sosial, gəlirlik səviyyəsi, ərzaq məhsullarının qiymətlərində ki dəyişikliklər başlıca yer tutur [9, s.182, 191]. Bucür dəyişikliklərin neytrallaşdırılması sarıdan hazırda müxtəlif dünya ölkələri öz fəaliyyətlərini birgə qurur və sonrakı istiqamətlərini müəyyən edir. Digər tərəfdən dünaya təcrübəsi göstərir ki, ərzaq təhlükəsizliyi iki formada özünü büruzə verir. Bunlarından biri qlobal digəri, isə milli ərzaq təhlükəsizliyidir.

**Qlobal və milli səviyyədə ərzaq təhlükəsizliyi**

Qlobal miqyasda ərzaq təhlükəsizliyi dedikdə, dünyanın sahib olduğu iqtisadi resurslar hesabına ərzaq təhlükəsizliyinin təmin edilməsi olsa da, digəri ölkənin milli iqtisadi potensialı hesabına ərzaq təminatını ödənilməsini əhatə edir. Milli ərzaq təhlükəsizliyinin təmin edillməsini şərtlərdirən çoxsaylı amillər mövcuddur. Həmin amillərdən bir neçə vacib olanını aşağıdakı şəkildə qruplaşdırmaq olar:

- ✓ ərzaq məhsulları üzrə təminatda fiziki amil, yəni məhsulun istehlak üzrə tələb oluanan svəviyyədə mövcudluğu;
- ✓ ərzaq məhsulları üzrə təminatda keyfiyyət amili, burada istehlak olunan məhsulun lazım olan, tələb olunan səviyyədə qidalılıq dəyrinin malik olması nəzərdə tutulur;
- ✓ ərzaq məhsulları üzrə təminatda iqtisadi amil, istehlak olunan məhsulun qiymət baxımından hamı üçün əlyetər olması;
- ✓ ərzaq məhsulları istehsalı ilə bazarda tələb olunan həcm arasında iqtisadi asılılığın qorunub saxlanılması. Bu amilə daha çox davamlılıq prinsipi kimi yanaşılır;
- ✓ əhalinin gəlirləri ilə istehlak qiymətləri arasında əlaqənin diqqət mərkəzindən saxlanılması.

Qeyd edilən amillər bu və ya digər dərəcədə qarşılıqlı əlaqədə və asılıqda olub, birinin mövcudluğu digərinin varlığını zəruri edir. Belə ki, qidanın fiziki cəhətdən mövcudluğu onun keyfiyyət göstəriciləri və qiymət əlyetərliliyinin hansı səviyyədə olması barədə suallar ortaya çıxarır. Odur ki, qidanın mövcudluğu hələdə ərzaq təhlükəsizliyinin təmin edilməsi demək deyil, ərzaq təhlükəsizliyi ölkədə həm keyfiyyət, həm qiymət, həm də kəmiyyət baxımından ərzaqın varlığı mənası gəlir. Digər tərəfdən bilindiyi üzrə ərzaq təminatının ödənilməsi məqsədilə yerli istehsalın müxtəlif sahələr üzrə ixtisaslaşdırılması bəzi hallarda çətin olur. Belə olduğu halda, bəzi yerli məhsulların istehsalı daha baha başa gəlir ki, bu da ölkə üçün iqtisadi cəhətdən səmərəsiz hesab edilr. Əslində məhsul istehsalı zamanı müqayisəli üstünlüyə diqqət edilməsi olduqca vacibdir. Çünki bəzi hallarda hansı məhsulun yetişdirilməsi baha baş gəlirsə, digər ölkələrdən həmin məhsulun idxal edilməsi daha səmərəli olur. Ancaq burada çalışılır ki? strateji məhsullar yerli istehsal hesabına istehsal edilsin [8, s 21-23].

10.61764/lasr.1.2023.136-143

Ərzaq təhlükəsizliyinin təmin edilməsi zamanı mövcud vəziyyətin hansı yerdə olduğunu daha aydın müşahidə etmək məqsədilə, ölkənin əsas növ bitkiçilik və heyvandarlıq məhsulları üzrə özünütəminetmə imkanına diqqət etmək olduqca vacibdir. Belə olduğu halda, ölkənin nə qədər yerli istehsal nə qədər idxal hesabına tələbatının ödənilməsini aydın görmək olur. Günlük istehlak tələbinin mütləq əksəriyyətinin aqrar sahə məhsulları təşkil etdiyini nəzərə alaraq düşünürük ki, bu sahədə özünütəminat səviyyəsinin təhlil edilməsi vacibdir. Odur ki, cədvəl 1-də bitkiçilik məhsulları üzrə özünütəminat səviyyəsinin möcud vəziyyətinə yer verilmişdir. Qısa bir vaxtda qeyd edək ki, ərzaq məhsulları istehsalçıları üzrə əsas maliyyə dəstəyi forması olan əkin subsidiyasının artırılması hesabına aqrar sahədə dənli və dənli paxlalı bitkiçilik məhsulları üzrə özünütəminetmə səviyyəsi 66.3 faizdən 73.7 faizə yüksəlmişdir. Bu hal xüsusilə buğda, arpa və qarğıdalı istehsalında özünün kəskin biruzə vermişdir.

***Cədvəl 1***

**Əsas növ bitkiçilik və heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz**

| Əsas növ bitkiçilik məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz | | | | | |
|---|---|---|---|---|---|
| | **2017** | **2018** | **2019** | **2020** | **2021** |
| Dənlilərin (çəltik istisna olmaqla) cəmi | 66.3 | 74.1 | 67.3 | 68,1 | 73.7 |
| buğda | 58.1 | 64.8 | 57.2 | 57,1 | 61.5 |
| arpa | 94.4 | 103.1 | 100.2 | 94,6 | 101.9 |
| qarğıdalı | 70.7 | 82.7 | 80.0 | 86,6 | 93.6 |
| Paxlalılar | 73.7 | 72.0 | 76.1 | 60,3 | 56.4 |
| Kartof | 89.2 | 90.8 | 87.8 | 90,6 | 88.8 |
| Bütün növ tərəvəz | 115.2 | 115.0 | 112.0 | 110,4 | 106.6 |
| Pomidor | 130.9 | 138.0 | 132.5 | 131,0 | 121.1 |
| Bostan məhsulları | 100.2 | 99.7 | 100.8 | 100,8 | 102.6 |
| Meyvə və giləmeyvə | 122.4 | 123.2 | 123.1 | 116,3 | 122.9 |
| **Heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz** | | | | | |
| | **2017** | **2018** | **2019** | **2020** | **2021** |
| Bütün növ ət və ət məhsulları | 84.7 | 82.7 | 82.5 | 84,5 | 86.4 |
| mal əti və ət məhsulları | 86.3 | 85.1 | 86.1 | 87,4 | 91.9 |
| qoyun və keçi əti və ət məhsulları | 98.0 | 98.1 | 97.6 | 97,3 | 98.2 |
| quş əti və ət məhsulları | 79.7 | 75.9 | 74.6 | 79,0 | 79.6 |
| Süd və süd məhsulları | 86.1 | 86.7 | 86.3 | 83,5 | 84.8 |
| Yumurta | 100.5 | 101.5 | 101.8 | 100,0 | 99.1 |
| Balıq və balıq məhsulları | 81.2 | 83.1 | 82.2 | 81,7 | 78.2 |

*Mənbə:* Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanılmışdır

Dənli paxlalı bitkilər üzrə son beş ilin məlumatlarının təhlili bu sahədə azalmanın olduğunu göstərmişdir. Analoji hal karof və bütün növ tərəvəz məhsulları üzrə də, müşahidə edilmişdir. Kartof məhsulları üzrə özünütəminetmə səviyyəsi 0.4 faiz azaldığı halda, bütün növ tərəvəz məhsulları üzrə özünütəminetmə səviyyəsində ki, azalma 8.6 faiz təşkil etmişdir. Cədvəl 1-in məlumatlarının təhlili bizə bostan və meyvə məhsulları üzrə ötən beş ildə qismən artımın olduğunu göstərir. Belə ki, baza ili ilə müqayisədə bostan məhsullarındakı nisbi artım 2.4 faiz, meyvə və giləmeyvə məhsulları üzrə isə 0.5 faiz təşkil etmişdir. Cədvəl 1-də yer alan heyvandarlıq məhsulları üzrə son beş ildəki artıma diqqət

edildiyi zaman aydın olur ki, bu sahədə də kəskin artımlar müşahidə edilməmişdir [10]. Ayrı-ayrılıqda qeyd etsək onda, mal əti və ət məhsulları üzrə son beş ildə artımın cəmi 1.7 faiz olduğunu görmüş olarıq. Qoyun və keçi əti məhsulları üzrə bu göstərici nisbətən cuzi kəmiyyətdə (0.2 faiz səviyyəsində) olmuşdur. Həmin dövrdə süd və süd məhsulları üzrə azalma qeydə alınmışdır. Azalmanın nisbi ifadəsi süd məhsulları üzrə 1.3 faiz, yumurta məhsulları üzrə 1.4 faiz səviyyəsində olmuşdur. Görüldüyü üzrə ötən beş ilin müqayisəli təhlili bizə, müxtəlif növ kənd təsərrüfatı məhsullarının istehsal səviyyəsindəki dəyişikliklərin özüntəminetmə səviyyəsinə bu və ya digər dərəcədə təsir etdiyini göstərir [3]. Artan istehlak tələbi qarşılığında istehsal amillərində, təbiət amillərində mənfi istiqamətdə dəyişikliklər məhsulların istehsal səviyyəsinə təsir etdiyindən, bu təsirlərin neytrallaşdırılması məqsədilə dövlətin dəstəkləyici maliyyə siyasətinə ehtiyyac yaranır. Məsələni zəruri edən digər faktor ölkəmizin 2022-ci il üzrə ərzaq təhlükəsizliyi indeksindəki yeri ilə bağlıdır.




***Şəkil 1.* 2022-ci il qlobal ərzaq təhlükəsizliyi indeksinə görə müxtəlif göstəricilər üzrə Azərbaycanda ərzaq təhlükəsiziyinin mövcud vəziyyəti (113 ölkə üzrə)**

*Mənbə:*https://impact.economist.com/sustainability/project/food-security-index/explore-countries/azerbaijan

2022-ci il qlobal ərzaq təhlükəsizliyi indeksinə görə ölkəmiz 113 ölkə sırasında 59.8 ballıq bir göstərici ilə 66-cı sırada yer almışdır. Bu hal digər müxtəlif göstəricilər, parametrlər əsasında müəyyənləşdirilir ki, həmin göstəricilər sırasında qiymət əlyetərliyi, məhsulların mövcudluğu, keyfiyyət və təhlükəsizliyi kimi məsələlər ayrı-ayrılıqda müəyyən edilir. Məhsulların qiymət əlyetərliyi üzrə ölkəmiz eyni sayda ölkə içərisində 48-ci yerdə, mövcudluq baxımında 68-ci sırada yer almışdır. Burada keyfiyyət və təhlükəsizlik baxımında ölkəmizdə mövcud olan ərzaq məhsulları 83-cü yerdə, davamlılıq və uyğunlaşma sarıdan isə 91-ci sırada qərarlaşmışdır [11,12]. Görüldüyü üzrə qlobal ərzaq təhlükəsizliyi indeksində yer alan iki göstərici üzrə ölkədəki ərzaq məhsulları qanətbəxş hesab edilsə də, digər iki göstərici üzrə bu halın yaxşılaşdırılmasına ehtiyyac duyulur [1]. Bu hal məhsulların keyfiyyət təminatının yaxşılaşdırılması və davamalılığı məsələləri ilə bağlıdır. Beləliklə aydın olur ki, hazırda qlobal dəyişikliklər fonunda diqqət ediləsi digər məsələ, qida təhlükəsizliyi ilə bağlıdır. Belə ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi

10.61764/lasr.1.2023.136-143

ərzaqın mövcudluğunu özündə ehtiva etsə də, onun istehlak üçün yararlılığı məsələləri məhz qida təhlükəsizliyi kimi ayırd edilir. Qeyd edilənlər əslində son zamanlar baş verən dəyişikliklərin qidaya olan tələbi artırsa da, buna zidd olan iqtisadi fəaliyyətlərində təsirlərinin kəskinləşdiyini göstərir. Bunu nəzərə alaraq yaxşı olar ki, qısa zamanda ən az iqtisadi resurs sərf etməklə, ən səmərəli həlli variantının tapılmasına nail olunsun. Bu məqsədlə qeyd edə bilərik ki, ərzaq təminatının yaxşılaşdırılması baxımından istehsalçıların, xüsusilə aqrar məhsul istehsalçılarının maliyyə əlyetərliliyinin, təminatının ödənilməsi olduqca vacibdir.

**Ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə yerli istehsalçılara maliyyə dəstəyinin göstərilməsi**

Ölkələr üzrə hazırlanan ərzaq strategiyalarına baxıldığı zaman aydın olur ki, diqqət edilən məsələlər içərisində ön sırada məhz aqrar məhsul istehsalçılarının maliyyə təminatının yüksəldilməsi məsələlərinə yer verilir. Odur ki, yerli istehsalçıların maliyyə əlyetərliliyinin təmin edilməsi sarıdan müxtəlif ölkələrdə, ayrı-ayrı sosial-iqtisadi parametrlər nəzərə alınmaq şərti ilə müxtəlif tənzimləyici maliyyə siyasəti həyata keçirir. Hazırda ölkəmizdə ərzaq təminatının yüksəldilməsi istiqamətində yerli məhsul istehsalçılarının dəstəklənməsinə xüsusi önəm verilir. Bu istiqamətdə həyata keçirilən birbaşa və dolayı dəstəkləyici tədbirləri aşağıdakı kimi sıralamaq olar.

- ✓ yerli kənd təsərrüfatı məhsul istehsalçılarına hər növbəti beş il üzrə vergi güzəştləri, azadolmaların tətbiq edilməsi;
- ✓ məhsul istehsalını reallaşdıran fermerlərə məhsul, əkin və toxum subsidiyalarının verilməsi;
- ✓ texniki təminat imkanlarının yaxşılaşdırılması nöqteyi-nəzərindən texnikalar üzrə 40% dövlət güzəştinin edilməsi. Geridə qalan hissənin kredit faizlərinin dövlət büdcəsi hesabına ödənilməsini təmin etmək;
- ✓ cins, damazlı heyvanların satışının təşkil edilməsində qanuverciliklə müəyyən edilmiş qayda da hüquqi, texniki və maliyyə güzəştlərinin tətbiq edilməsi (Damazlıq cins üzrə dövlət büdcəsi hesabına maliyyə dəstəyinin həcmi 60 %-dir) [14].
- ✓ yerli istehsalçıların aşağı faizli kreditlərlə maliyyə təminatının dəstəklənməsi. Hazırda bu iqtisadi fəaliyyət Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən yerinə yetirilir.

Yuxarıda göstərilən dəstəkləyici iqtisadi fəaliyyətlərlə yanaşı, ölkəmizdə istər yeni texnologiyanın istehsala tətbiqi sarıdan istərsə də, yeni növ iqtisadi yanaşmanın tətbiq edilməsi sarıdan yerli istehsalçılara sərbəstlik verilmişdir. Dövlət burada yerli istehsalçıların fəaliyyətlərinin səmərəli reallaşdırılması istiqamətində maliyyə dəstəyi göstərməkdədir. Məlumat üçün qeyd edək ki, 2019-cu ildə təkcə Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən aqrar sektorun inkişafı məqsədilə 58 rayonda 723 sahibkara 21167.1 min manat dəyərində aşağı faizli və uzun müddətli şərtlərlər kredit verilmişdir. Həmin kreditlər hesabına 705 daimi və müvəqqəti iş yeri yaradılmışdır. Eyni ildə 383.7 min sahibkara, istifadəsində olan 1214.3 min hektar ərazidə yetişdirilən məhsullar müqabilində dövlət büdcəsindən birdəfəlik 83240.6 min manat dəyərində maliyyə dəstəyi göstərilmişdir. Ayrı-ayrılıqda qeyd etsək, 2019-cu ildə pambıqçılıq sahəsində fəaliyyətini reallaşdıran 18714 fermerə 295.5 min ton pambıq istehsalı qarşılığında 29.6 mln. manat vəsait ödənilmişdir. Bundan başqa tütünçülük sahəsində fəaliyyət göstərən 442 fermerə həmin ildə, 2237.0 ton

quru tütün istehsalı müqabilində 185.3 min manat maliyyə ödənişi edilmişdir. 2019-cu ildə 966 fermerə 219 min ton şəkər çuğunduru məhsulu istehsal etdiyi üçün ödənilən maliyyə ödənişini həcmi isə 874 min manat təşkil etmişdir [7]. Bundan başqa ölkəmizdə sahibkarlığın inkişafının təmin edilməsi məqsədilə yaradılan Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli maliyyə kreditləri hesabına 2021-ci ildə ümumi dəyəri 288 mln manat təşkil edən 1902 investisiya layihə maliyyələşdirilmişdir. Sözügedən layihələrin maliyyələşdirilməsi məqsədilə fond tərəfindən ayrılan güzəştli kreditin həcmi 131 mln manat təşkil etmişdir. Maliyyələşdirilən layihələrin təqribən 59 faizi aqrar məhsul istehsalının reallaşdırılması məqsədilə həyata keçirilən layihələr olsa da, geridə qalanı sənayenin müxtəlif sahələrini əhatə etmişdir. Məlumat üçün qeyd edək ki, son 18 ildə fond tərəfindən maliyyələşdirilən layihələr üzrə 3 mlrd manatdan çox ödənişlər edilmişdir. Görüldüyü üzrə reallaşdırılan layihələrin mütləq əksəriyyəti aqrar sahəni əhatə edir ki, bu da bilavasitə ərzaq təhlükəsizliyinin etibarlı təmin edilməsindən irəli gəlir [13].

Maliyyə təminatının hüquqi tənzimlənməsi məqsədilə ölkəmizdə çoxsaylı qanunvercilik aktı qəbul edilmişdir. Bunlardan son vaxtlar qəbul edilənlərinin bir neçəsini ayırd etmək düşünürük ki, faydalı olardı. Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2018-ci il tarixində "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi" haqqında, 4 iyun 2020-ci il tarixində "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında, 26 iyun 2018-ci il tarixində "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi" haqqında müvafiq fərmanları xüsusi diqqət çəkir [2]. Fərmanların adları fərqli olsa da, əsas məğzini yerli sahibkarların maliyyə təminatının yaxşılaşdırılmasının təşkili və təkmilləşdirilməsi məsələləri təşkil edir.

**Nəticə**

Mövzu üzrə apardığımız tədqiqatın nəticəsi kimi qeyd edə bilərik ki, ərzaq təhlükəsizliyi təkcə ölkənin milli iqtisadi təhlükəsizliyinin vacib tərkib hissəsi kimi deyil, həm də əhalinin həyat fəaliyyətinin təminatçısı kimi çıxış edir. Odur ki, bu iqtisadi fenomenə müxtəlif aspektlərdən yanaşılması vacibdir. Belə ki, istər tibbi, istər iqtisadi istərsə də milli səviyyədə onun təmin edilməsi ölkəninn iqtisadi gücünü xarakterizə edir. Digər tərəfdən qeyd etdiyimiz kimi ərzaqın fiziki mövcudıuğu heç də onun əlyetərliyinin, keyfiyyət təminatının yüksəkliyi mənasına gəlmir. Burada ərzaqın fiziiloji normalara uyğunluğu olduqca əhəmiyyətli iqtisadi faktordur. Əks halda bu insanların günlük həyat fəaliyyətinə bu və ya digər dərəcədə mənfi təsir etmək gücünə malikdir. Qeyd edilənlərin vacibliyini nəzərə alaraq, ərzaq məhsulları istehsalçılarının maliyyə təminatının yüksəldilməsi istiqamətindən dövlət müxtəlif iqtisadi siyasətlər seçir, alətlərdən istifadə edir. Beynəlxalq təcrübə göstərir ki, yerli istehsalçıların maliyyə təminatının yüksəldilməsi istiqamətində dövlət siyasətinin reallaşdırılması bu sahədə istehsalın kəskin artıman səbəb olur. Bu məqsədlə yerli istehsalçıların istər birbaşa, istərsədə dollayı yollarla maliyyə təminatının artırılması dövlətin iqtisadi siyasətinin priolitet istiqaməti kimi fərqləndirilir. Məqalənin yerinə yetirilməsi zamanı aydın oldu ki, ölkəmizdə bu sahədə çoxsaylı dəstəkləyici iqtisadi siyasət tədbirləri reallaşdırılmaqdadır. Tədbirlər iqtisadi səmərəlilik baxımından bir-birindən fərqlənsə də, onların sahənin strukturundan asılı olaraq kompleks şəkildə reallaşdırılması olduqca məhsuldar nəticələrin əldə edilməsinə imkan verə bilir.

10.61764/lasr.1.2023.136-143

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. Əhalinin ərzaq əlyetərliliyi üzrə statistik müayinənin yekunları. Statistik məcmuə. 2022
2. Azərbaycan Respublikasının 2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası, 22 iyul 2022
3. "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 iyul 2022-ci il tarixli Fərmanı
4. "Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 07 oktyabr 2021-ci il tarixli Fərmanı
5. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi", Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
6. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi", 6 dekabr 2016-cı il
7. "Azərbaycanın ərzaq balansları" (2021), Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri, Bakı, 243 s
8. Abbasov A.F. (2008) Milli ərzaq təhlükəsizliyi, Bakı, 379 s.
9. Dayanıqlı İnkişaf Məqsədləri (2021).Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri, Bakı, 453 s.
10. http://sdg.azstat.org:8484/az/summary-goals
11. https://www.postharvest.com/blog/top-food-waste-statistics-of-2021/
12. www.globalhungerindex.org
13. https://www.azerbaijan-news.az
14. https://www.akia.gov.az


**Эсмира Гасанзаде**

## ЭКОНОМИЧЕСКОЕ ЗНАЧЕНИЕ НАЛОГОВОЙ ПОЛИТИКИ В ОБЕСПЕЧЕНИИ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ И ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ


### *РЕЗЮМЕ*

Со дня своего существования человеческое общество нуждалось в потреблении продуктов питания, чтобы обеспечить непрерывность жизнедеятельности. С этой целью в начальные периоды он проводил практическую деятельность, направленную на заготовку и выращивание на этой основе различных сельскохозяйственных и животноводческих продуктов. Однако с течением времени изменение и развитие общества в соответствии с требованиями времени привело к коренным изменениям их повседневных потребностей в потреблении. Поэтому обеспечение продовольственного снабжения на благоприятных условиях выступает важным направлением национальной продовольственной политики каждой страны. С этой целью в статье подчеркивается, что, поскольку поддержка местных товаропроизводителей в разных сферах является проверенным и эффективным мировым опытом, особое внимание уделяется практике государственной поддержки местных товаропроизводителей через финансовые инструменты в целях обеспечения современной продовольственной безопасности. В этой сфере выделяют направления совершенствования финансового механизма и используют наиболее эффективные из них.

***Цель:*** выделение продовольственной безопасности как важного звена национальной экономической безопасности, обоснование того, что ее обеспечение приводит к коренным социально-экономическим изменениям в национальной экономике.

***Методология:*** методологию статьи составляют методы математико-статистического анализа, логической последовательности, логического суждения и анализа-синтеза.

10.61764/lasr.1.2023.136-143

***Результат исследования:*** несмотря на наличие множества научно-теоретических подходов к безопасности пищевых продуктов в современное время, комплексное решение проблемы не достигнуто. С одной стороны, увеличение количества людей в мире, с другой стороны, усугубление воздействия различных негативных тенденций, происходящих в окружающей среде, привели к возникновению множества различных препятствий на пути обеспечения продовольственной безопасности. Поскольку такие препятствия выявляются и устраняются в короткие сроки, для достижения результатов реализованных мероприятий требуется определенное время.

***Ключевые слова:*** *глобальная продовольственная безопасность, национальная продовольственная безопасность, само обеспечение, государственная поддержка, финансовые инструменты*

**Esmira Hasanzade**

## THE ECONOMIC IMPORTANCE OF FISCAL POLICY IN ENSURING FOOD SECURITY AND FOOD SECURITY

### *ABSTRACT*

Since the day of its existence, human society has needed the consumption of food products in order to ensure the continuity of life activities. For this purpose, in the initial periods, he carried out practical activities aimed at the preparation and breeding of various agricultural and livestock products on this basis. However, over time, the change and development of the society according to the requirements of the time led to fundamental changes in their daily consumption requirements. Therefore, provision of food supply under favorable conditions acts as an important direction of the national food policy of each country. For this purpose, since the support of local product producers in different areas is a tested and efficient world experience, special attention is being paid to the practice of the state supporting local producers through financial instruments in order to ensure modern food security. In this area, directions for improving the financial mechanism are distinguished and the most efficient ones are used.

***Purpose:*** distinguishing food security as an important link of national economic security, justifying that its provision leads to fundamental socio-economic change in the national economy.

***Methodology:*** the methodology of the article is made up of mathematical-statistical analysis, logical sequence, logical judgment and analysis-synthesis methods.

***The result of the research:*** although there are many scientific-theoretical approaches to food safety in modern times, a comprehensive solution to the problem has not been achieved. On the one hand, the increasing number of people in the world, on the other hand, the aggravation of the impact of various negative trends occurring in the environment have led to the emergence of many different obstacles to ensuring food security. Since such obstacles are identified and eliminated in a short period of time, it takes a certain amount of time to achieve the results of the implemented measures.

***Keywords:*** *global food security, national food security, self-sufficiency, state support, financial instruments*